Yazan
20.11.13 23:30 - axırıncı dəyişikliklər 21.11.13 01:04



Bu gün Azərbaycanın müstəqillik tarixinin ən faciəli hadisələrindən birinin 22-ci il dönümüdür. 1991-ci il noyabrın 20-də Xocavənd rayonunun Qarakənd kəndi üzərində “Mi-8” vertolyotu ermənilər tərəfindən vurulmuşdu. Vertolyotun vurulması nəticəsində Azərbaycanın o dönəmki siyasi elitasının əsas üzvüləri həlak olublar.

Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olub. Bu gün onların xatirəsi Fəxri Xiyabanda məzarları başında anılıb. Məzarları ziyarət edənlər arasında Azərbaycanın ilk prezidenti Ayaz Mütəllibov da olub.

Eks-prezident ziyarətə gələnlərlə salamlaşıb və terror qurbanı olmuş keçmiş komandasının üzvlərinin məzarı üstünə qərənfillər düzüb.

{youtube}en2o_q14g1M{/youtube}